AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ PHŞ
UNEC

# ELMİ ŞURA

**05 MAY 2025-Cİ İL**

# QƏRAR EŞ № 201

**SƏDRLİK ETMİŞDİR** **REKTOR PROF. Ə.C.MURADOV**

**ELMİ KATİB:** **Ə.Ə. MUSTAFAYEVA**

**İŞTİRAK ETMİŞDİR:** Universitetin Elmi Şurasının 50 üzvündən 43 üzvü

## E Ş İ D İ L D İ:

***Rektor prof. Ə.C.Muradov***

*Əsasnamə haqqında*

## Q Ə R A R A A L I N D I:

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) "İqtisadi Klinika" Tədqiqat Mərkəzinin Əsasnaməsi təsdiq edilsin.

**ELMİ ŞURANIN SƏDRİ** **PROF. Ə.C. MURADOV**

**ELMİ ŞURANIN KATİBİ** **Ə.Ə. MUSTAFAYEVA**

**“TƏSDİQ EDİRƏM”**
Azərbaycan Dövlət İqtisad
Universitetinin rektoru i.e.d., professor

_______________ Ə.C.Muradov

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**İQTİSADİ KLİNİKA TƏDQİQAT MƏRKƏZİNİN**

# ƏSASNAMƏSİ

*UNEC Elmi Şurasının 05 may 2025-ci il*
*tarixli 201 saylı qərarı ilə təsdiq edilmişdir.*

**UNEC - 2025**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "İqtisadi Klinika" Tədqiqat Mərkəzi bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində iqtisadi və sosial-iqtisadi tədqiqatların aparılmasını və elmi tədqiqat işlərində empirik metodlardan istifadə olunmasını təşviq edəcək, professor-müəllim heyətinə və tələbələrə keyfiyyətli elmi tədqiqatların aparılması və beynəlxalq bazalara çıxış imkanları ilə bağlı dəstək olacaq, yerli və beynəlxalq əməkdaşlıq çərçivəsində elmi-tədqiqat layihələrini həyata keçirəcək. Bu məqsədlə "İqtisadi Klinika" Tədqiqat Mərkəzi ilk növbədə Web of Science Q1 kateqoriyasında yüksək impakt faktorlu jurnallarda məqalələr dərc etməyi qarşısına məqsəd qoyub.

1.2. "İqtisadi Klinika" Tədqiqat Mərkəzi fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Təhsil Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə Azərbaycan Respublikası Təhsil Nazirliyinin normativ-hüquqi sənədlərini, UNEC-in Nizamnaməsini və bu Əsasnaməni rəhbər tutur.

1.3. "İqtisadi Klinika" Tədqiqat Mərkəzi fəaliyyətini mövcud qanunvericiliyə uyğun olaraq dövlət, özəl və xarici müəssisələrlə bağlanmış sazişlər və müqavilələr əsasında həyata keçirir.

1.4. "İqtisadi Klinika" Tədqiqat Mərkəzi öz vəzifələrini və hüquqlarını həyata keçirərkən UNEC-in struktur bölmələri, dövlət orqanları, elm və təhsil qurumları və digər yerli və beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Mərkəzin fəaliyyət istiqamətləri

2.1. Mərkəzin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. İqtisadi və sosial elmlər üzrə elmi tədqiqatlar aparmaq, tədqiqat nəticəsində ortaya çıxan problem, təklif və tövsiyələri elmi mühit, cəmiyyət, dövlət və özəl sektor qurumları ilə bu və digər formada bölüşmək;

2.1.2. Tədqiqatların aparılmasını təşviq etmək və bu sahədə qarşıya çıxan problemlərin həlli istiqamətində təkliflər vermək;

2.1.3. Qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Mərkəzin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq mərkəzin vəzifələri aşağıdakılardır:

3.1.1. Elmi tədqiqat işləri və layihələri həyata keçirmək;

3.1.2. Beynəlxalq və milli konfranslar, simpoziumlar, seminarlar, dəyirmi masalar, təlimlər təşkil etmək;

3.1.3. Sosial elmlərdə empirik metodlar üzrə izahlı təlim seminarları keçirmək;

3.1.4. Müxtəlif dillərdə nəşrlər hazırlayıb çap etdirmək;

3.1.5. Hesabatlar, kitabçalar, tədqiqat sənədləri, məqalələr, bülletenlər, kitablar və s. hazırlamaq;

3.1.6. Ölkə daxilində və xaricdə yerləşən tədqiqat mərkəzləri, institutlar, universitetlər və özəl sektor təmsilçiləri ilə əməkdaşlıq etmək;

3.1.7. Fəaliyyət istiqamətləri üzrə daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək ;

3.1.8. Səlahiyyətləri çərçivəsində universitetin inkişaf konsepsiyasının həyata keçirilməsini təmin etmək;

3.1.9. Mərkəzin iş planını və fəaliyyəti ilə bağlı hesabatlar hazırlamaq;

3.1.10. Mərkəz tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların qorunmasını təmin etmək;

3.1.11. Fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetırmək.

## 4. Mərkəzin hüquqları

4.1. Mərkəzin vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.1.1. Bu Əsasnamədə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində təkliflər hazırlamaq, universitetin strukturlarına müvafiq sorğular göndərmək və onlardan müvafiq məlumatlar almaq;

4.1.2. Universitetdə və aidiyyəti qurumlarda fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə iştirak etmək;

4.1.3. Mərkəz tərəfindən aparılan elmi tədqiqatlara əsaslanaraq rəy bildirmək, təkliflər vermək və analitik materiallar hazırlamaq;

4.1.4. Müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

4.1.5. Fəaliyyət istiqamətlərini həyata keçirərkən universitetin maddi-texniki bazasından sərbəst istifadə etmək;

4.1.6. Mərkəz tərəfindən cəlb edilən vəsaitlərin və sponsor paylarının məqsədyönlü istiqamətdə bölüşdürülməsinə dair universitet rəhbərliyinə təkliflər vermək;

4.1.7. Fəaliyyət istiqamətlərini həyata keçirmək üçün əlavə maliyyə vəsaitlərinin cəlb olunması barədə tədbirlər görmək;

4.1.8. Qanunvericiliklə müəyyən edilmiş qaydada bülleten buraxmaq, universitetin internet səhifəsində öz bölməsini yaratmaq, dövri nəşrlərin həyata keçirilməsində iştirak etmək və təkliflər vermək;

4.1.9. Tədqiqatların aparılması ilə bağlı təlimlər, seminarlar və konfranslar təşkil etmək;

4.1.10. Fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Mərkəzin fəaliyyətinin təşkili

5.1. "İqtisadi Klinika" Tədqiqat Mərkəzi fəaliyyətinin təşkili UNEC rektorunun əmri ilə təyin olunmuş rəhbər tərəfindən həyata keçirilir.

5.2. Mərkəzin fəaliyyətinin təşkili məsələlərində Mərkəz rəhbəri Tədqiqat Mərkəzlərinin İşinin Əlaqələndirilməsi və Təşkili şöbəsi ilə koordinasiyalı şəkildə fəaliyyət göstərir;

**6. Mərkəzin yaradılması və ləğv edilməsi**

6.1. Mərkəz UNEC-in Elmi Şurasının qərarı və rektorun əmri əsasında yaradılır və ləğv edilir.